**“Mühasibat” ixtisası, təhsilinin 4-cü ili tələbələrinə şamil olunur.**

***UNEC üçün ACCA Accelerate Proqramı üzrə Rəsmi Məlumat***

UNEC-in “Mühasibat” bakalavr proqramı üzrə ACCA Accelerate kodunun (UX0) verildiyini məmnuniyyətlə təsdiq edirik.

Bu Accelerate kodu yalnız təhsilin son ilində (4-cü il) oxuyan və 31 dekabr 2026-cı il tarixində məzun olması gözlənilən tələbələrə şamil olunur. Kod uyğun olan son kurs tələbələrinə ACCA Accelerate proqramı çərçivəsində ACCA-da qeydiyyatdan keçmək imkanı yaradır və aşağıdakı güzəştləri təmin edir:

- İlkin ACCA qeydiyyat haqqının azaldılması;
- Exemption (azadolma) haqları üzrə endirimlər;
- ACCA illik üzvlük haqqından (subscription fee) azadolma.

Qeyd edək ki, UX0 Accelerate kodu 31 dekabr 2026-cı il tarixindən sonra etibarlı olmayacaqdır.

Uyğunluq və Qeydiyyat Tələbləri

- Tələbə hal-hazırda təhsilin 4-cü ilində olmalı və yuxarıda qeyd olunan təsdiqlənmiş proqram üzrə təhsil almalıdır;
- Tələbə ACCA-da əvvəllər qeydiyyatdan keçmiş (aktiv, dayandırılmış və ya çıxmış) olmamalıdır;
- UX0 Accelerate kodu yalnız tələbənin ilk ACCA onlayn qeydiyyatı zamanı istifadə edilməlidir;
- ACCA qeydiyyatı 31 dekabr 2026-cı il tarixindən əvvəl tamamlanmalıdır;
- Qeydiyyat zamanı Accelerate Uyğunluq Məktubu (Eligibility Letter) onlayn ərizəyə əlavə edilməlidir;
- Uyğunluq məktubunda edilən hər hansı dəyişiklik qeydiyyat prosesinin gecikməsinə səbəb ola bilər.

***Məzun olduktan sonrakı tələblər:***

- Tələbə bakalavr təhsilini 31 dekabr 2026-cı il tarixinədək uğurla başa vurmalıdır;
- Azadolmalar (exemptions) təhsilin tamamlanmasına əsasən 31 yanvar 2028-ci il tarixinədək tələb edilməlidir;
- Azadolma uyğunluğunun qiymətləndirilməsi üçün tələbələr məzuniyyət haqqında diplomu və tam akademik transkripti təqdim etməlidirlər;

- Tələbələr ACCA hesablarındakı bütün ödənişlərin vaxtında həyata keçirilməsinə görə şəxsi məsuliyyət daşıyırlar. Ödənişlərin gecikdirilməsi Accelerate güzəştlərinin ləğvinə səbəb ola bilər.

**Qeyd:** Əgər tələbə bakalavr proqramını göstərilən müddətdə tamamlamazsa, Accelerate güzəştlərinə uyğunluğunu itirə bilər və müvafiq ACCA imtahanlarını verməli ola bilər. Bu halda təqdim edilən azadolmalar standart tariflə hesablanacaqdır.

Əlaqə

Əlavə dəstək və suallar üçün ACCA Connect xidməti ilə students@accaglobal.com elektron poçt ünvanı vasitəsilə əlaqə saxlamaq mümkündür.